**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ**

**Ə M R № 04**

**Bakı şəhəri** 28. 01. **2019-cu il**

**"Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyində qulluq keçən dövlət qulluqçularının etik davranış Qaydaları"nın təsdiq edilməsi və etik məsələlər üzrə məsul şəxsin təyin edilməsi haqqında**

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 21.1-ci və 21.2.8-ci maddələrinə uyğun olaraq və Azərbaycan Respublikası Prezidentinin 21 sentyabr 2018-ci il tarixli 278 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə"nin 5.5.12-ci yarımbəndini rəhbər tutaraq **əmr edirəm:**

1. "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyində qulluq keçən dövlət qulluqçularının etik davranış Qaydaları" təsdiq edilsin (əlavə olunur).
2. Hüquq və insan resursları şöbəsinin müdir müavini Mehriban Hüseynova Agentlikdə etik davranış qaydalarına əməl olunmasına nəzarət edilməsi məqsədi ilə etik məsələlər üzrə məsul şəxs təyin edilsin.
3. Hüquq və insan resursları şöbəsi Agentliyin əməkdaşlarının "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyində qulluq keçən dövlət qulluqçularının etik davranış Qaydaları" ilə tanış olmasını təmin etsin.
4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Sədr** **Fuad Nağıyev**

**Göndərilsin:**

**Agentliyin struktur bölmələrinə**

C. Abbasova

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
SƏNƏDLƏR ÜÇÜN

Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyinin
2019-cu il 28.01.2019-cu tarixli
04 nömrəli Əmri ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyində qulluq keçən dövlət qulluqçularının etik davranış Qaydaları

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyində qulluq keçən dövlət qulluqçularının etik davranış Qaydaları "Dövlət Qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 18.0.12-ci maddəsinə və "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 21.2.8-ci maddəsinə uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyində (bundan sonra Agentlik) qulluq keçən dövlət qulluqçularının (bundan sonra - dövlət qulluqçuları) etik davranış qaydalarını və onlara əməl edilməsi ilə bağlı münasibətləri müəyyən edir.

1.2. Bu Qaydalar Agentlikdə qulluq keçən və dövlət qulluqçusu statusuna malik olan bütün şəxslərə şamil edilir.

1.3. Agentliyin hər bir dövlət qulluqçusu öz fəaliyyətində insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış normalarını rəhbər tutaraq bu Qaydalara əməl etməyə borcludur.

### 2. Qaydaların məqsədləri

2.1. Agentliyin və dövlət qulluğunun nüfuzunun artırılması, vətəndaşların Agentliyə etimadının yüksəldilməsi;

2.2. Agentliyin və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, korrupsiyanın və maraqların toqquşmasının qarşısının alınması;

2.3. Agentlikdə qulluq keçən dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi, vətəndaşların Agentliyin dövlət qulluqçularından gözlənilən davranışlar barədə məlumatlandırılması.

### 3. Etik davranış qaydaları

3.1. Dövlət qulluqçularının xidməti davranışı qanunvericiliklə ona verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətidir. Agentliyin dövlət qulluqçularının xidməti davranışı "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu və bu Qaydalarla müəyyən edilmiş etik davranış qaydalarına və prinsiplərinə əsaslanmalıdır.

3.2. **vicdanlı davranış tələbinin pozulması hallarına yol verilməməli:**

3.2.1. xidməti vəzifəsini həyata keçirərkən süründürməçilik hallarına yol verməməli və bu cür halların əmələ gəlməsinə şərait yaratmamalı;

3.2.2. hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.

**3.3. peşəkarlıq və fərdi məsuliyyəti**:

3.3.1. etik davranışı və öz peşəkar fəaliyyəti ilə agentliyə və onun rəhbər şəxslərinə inamı artırmalı və möhkəmləndirməli, xidməti vəzifələrinin icrası ilə birbaşa bağlı olmayan xidməti məsələlərə müdaxilə etməməli;

3.3.2. xidməti vəzifələrini diqqətlə, dəqiqlik və peşəkarlıqla yerinə yetirməli və bu zaman prinsipial, qərəzsiz, obyektiv və məsuliyyətli olmalıdır.

**3.4. loyallıq prinsipinin tələblərinə əməl etmə:**

3.4.1. onun xidməti vəzifəsinə aid olmadığı hallarda Agentliyin, onun rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və

onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Bu qayda dövlət qulluqçusunun elmi-pedaqoji fəaliyyəti ilə bağlı çıxışlarına və ya elmi yazılarına şamil olunmur.

3.4.2. hər bir şəraitdə şərəf və ləyaqətini qorumalı, andına sadiq olmalı, dövlət qulluğu ilə bağlı vəzifələrin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə Agentliyin nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir, qanunvericilikdə nəzərdə tutulmuş məhdudiyyətlərə əməl etməlidir.

3.4.3. Agentlik tərəfindən açıq çıxışlarla müəyyən olunmuş qaydalara əməl etməlidir.

**3.5. ictimai etimadın doğruldulması:**

3.5.1. qanunvericilikdə müəyyən edilən hallar istisna olmaqla, xidməti fəaliyyətini həyata keçirən zaman dövlət dilində danışmalı;

3.5.2. Azərbaycan Respublikasının, Agentliyin və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməli, öz adını və şərəfini uca tutmalıdır;

3.5.3. etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmalı, o cümlədən etimadın bərpası üçün tədbirlər görməli;

3.5.4. dövlət orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyəti barədə ictimaiyyəti məlumatlandıran kütləvi informasiya vasitələri nümayəndələrinin qanunla müəyyən edilmiş hallarda və qaydada doğru (dürüst) məlumatlar almasına köməklik göstərməlidir.

**3.6. xidməti fəaliyyətdə insanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət etmə, hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət etmə:**

3.6.1. xidməti fəaliyyəti ilə bağlı əldə etdiyi məlumatların konfidensiallığını işdən azad olunduqdan sonra da qorumalı;

3.6.2. insanların şərəf, ləyaqət və işgüzar nüfuzunu, o cümlədən hüquqi şəxslərin işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (hərəkətsizliyə) yol verməməli;

3.6.3. digər dövlət qulluqçusunun xidməti fəaliyyətini həyata keçirməsinə maneələr yaratmamalı və onlara hörmətlə yanaşmalıdır.

**3.7. xidməti fəaliyyətini həyata keçirərkən mədəni davranış:**

3.7.1. dövlət qulluqçularına və digər şəxslərə qarşı təhqiredici və hədələyici ifadələr işlətməməli, narahat etmə hallarına yol verməməli;

3.7.2. bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır.

**3.8. birbaşa və ya yuxarı rəhbərinin qanuna uyğun və səlahiyyətləri daxilində qəbul etdiyi əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi:**

3.8.1. qanunvericiliyin tələblərinə uyğun verilən tapşırıqları müəyyən edilmiş müddətlər ərzində yerinə yetirməli;

2.8.2. qanuni göstərişlərin yerinə yetirməməsi intizam məsuliyyətinə səbəb olur.

**3.9. qərəzsiz olma:**

3.9.1. xidməti vəzifəsini yerinə yetirdiyi zaman insanların irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə ayrı-seçkiliyə yol verməməli;

3.9.2. xidməti vəzifələrin yerinə yetirilməsi zamanı siyasi birtərəfliyə əməl etməli;

3.9.3. qulluq mövqeyindən istifadə edərək digər dövlət qulluqçusunu qanuna zidd hərəkətə (hərəkətsizliyə) sövq etməməlidir.

**3.10. qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə edilməyə yönəlmiş hərəkətlərə yol verməmə:**

3.10.1. öz məqsəd və mənafeyi üçün digər dövlət qulluqçusunu və ya şəxsləri onların hər hansı hərəkətinə görə təhdid etməməli;

3.10.2. şəxslərə əvəzsiz göstərilməsi nəzərdə tutulan xidmət üçün onlardan haqq tələb etməməli və ya ödənişli xidmətlər üzrə nəzərdə tutulan məbləğdən artıq haqq almamalıdır.

**3.11. Korrupsiyanın qarşısının alınması ilə bağlı:**

3.11.1. dövlət qulluqçusu ona təklif edilən qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyaz və ya güzəştlərdən imtina etməli;

3.11.2. dövlət orqanının tərəf olduğu əqdlərdə qarşı tərəf və ya onun nümayəndəsi kimi iştirak etməməlidir.

**3.12. hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər:**

3.12.1. xidməti vəzifələrinin qərəzsiz icrası (icra etməməsi) ilə bağlı məsələlərdə ona təsir etmək cəhdlərinin qarşısını qətiyyətlə almalı, belə cəhdlərin mövcudluğunu ehtimal etməyə əsas olduqda heç kimdən hər hansı formada hədiyyə, bəxşiş, ödənc və s. tələb və ya qəbul etməməlidir.

**3.13. maraqlar toqquşmasının qarşısının alınması:**

3.13.1. öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadəyə yol verməməli, xidməti vəzifələri ilə onun şəxsi maraqları arasında ziddiyyət yaranan hallarda, həmin maraqların xarakteri barədə bilavasitə rəhbərinə məlumat verməli;

3.13.2. başqa vəzifəyə keçmə ilə əlaqədar təkliflərin maraqlar toqquşmasına səbəb ola biləcəyi hallarda bu barədə dövlət orqanı rəhbərinə məlumat verməli;

3.13.3. dövlət qulluğuna xitam verildikdən sonra əvvəllər fəaliyyətinə nəzarət etdiyi idarə, müəssisə, təşkilat və ya onun bölmələrindən gələn iş təkliflərini qəbul etməməlidir.

**3.14. istifadəsində olan dövlət əmlakını istifadə edərkən aşağıdakılar nəzərə almalı:**

3.14.1. dövlət orqanının resurslarının təhlükəsizliyini təmin etməli və onlardan xidməti vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlər üçün istifadə etməməli;

3.14.2. dövlət orqanının rəsmi e-mailindən, maliyyə, nəqliyyat vasitələrindən, yalnız xidməti fəaliyyəti ilə bağlı istifadə etməlidir.

**3.15. xidmət etdiyi dövlət orqanının sərəncamında olan məlumatdan istifadə:**

3.15.1. qanunvericiliklə müəyyən olunmuş qaydada əldə olunması və yayılması mümkünlüyünü təmin etməli;

3.15.2. xidməti informasiyanı təqdim edəcəyi hallarda bilavasitə rəhbərini məlumatlandırmalı;

3.15.3. xidməti fəaliyyəti zamanı əldə etdiyi məlumatları şəxsi maraqları üçün istifadə etməməlidir.

**3.16. ictimai siyasi fəaliyyəti ilə əlaqədar məhdudiyyətlər:**

3.16.1. vəzifəsini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməməlidir.

3.16.2. mövqeyindən istifadə edərək digər dövlət qulluqçularını ictimai və siyasi birliklərin və dini təşkilatların fəaliyyətində iştiraka təhrik etməməlidir.

3.16.3. seçkilər zamanı öz vəzifə mövqeyindən və səlahiyyətlərindən özünün və ya digər namizədlərin, siyasi partiyaların, siyasi partiyaların bloklarının xeyrinə istifadə etmək qadağandır.

3.16.4. tətillərdə və əmək fəaliyyətini pozan digər hərəkətlərdə iştirak etməməlidir.

3.16.5. elm və yaradıcılıq fəaliyyəti istisna olmaqla, Agentliyin rəhbərinin icazəsi olamadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmamalı, elm və yaradıcılıq fəaliyyəti ilə məşğul olması barədə Agentliyin rəhbərini əvvəlcədən məlumatlandırmalıdır.

## 4. Etik Davranış Qaydalarına riayət olunmasının təminatı

4.1. Dövlət qulluqçusu tərəfindən etik davranış qaydalarına əməl olunması üçün davranışının həmin Qaydalara uyğunluğu onun özü, birbaşa və ya yuxarı rəhbəri tərəfindən müntəzəm təhlil edilir və bu Qaydalarda nəzərdə tutulmuş tədbirlər görülür.

4.2. Etik davranış qaydalarına əməl olunmasına nəzarəti Agentliyin rəhbəri - xidməti qaydada, yuxarı orqan-tabeçilik əsasında həyata keçirir.

## 5. Agentliyin rəhbəri tərəfindən həyata keçirilən nəzarət

5.1. Etik davranış qaydalarına əməl olunmasına nəzarət Agentliyin sədri tərəfindən Hüquq və insan resursları şöbəsi vasitəsilə həyata keçirilir.

5.2. Agentliyin rəhbəri tərəfindən etik davranış qaydalarına əməl edilməsi ilə bağlı aşağıdakılar həyata keçirilir:

5.2.1. dövlət qulluqçularının xidməti davranışının bu Qaydalarla müəyyən olunan etik davranış qaydalarına uyğunluğuna nəzarət etməli və onun təhlilini aparmalıdır;

5.2.2.fərdi davranışı ilə etik davranış nümunəsini göstərməlidir;

5.2.3. dövlət qulluqçuları arasında onların tutduqları vəzifələrə uyğun olaraq vəzifə bölgüsü aparmalıdır;

5.2.4. tabeliyindəki işçiləri hüquqa və hamılıqla qəbul edilmiş etik normalara zidd olan hərəkətlər etməkdən və qərarlar qəbul etməkdən çəkindirməlidir;

5.2.5. Agentliyin və onun struktur bölmələrinə kadrların seçilməsi və yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl edilməsini təmin etməlidir;

5.2.6. etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər görməlidir;

5.2.7. dövlət qulluqçularına etik davranış qaydalarının izah edilməsini və müraciət olunduğu təqdirdə etik davranış qaydalarına əməl olunmasına dair onlara tövsiyələr verilməsini təmin etməlidir;

5.2.8. etik davranış qaydalarını pozan dövlət qulluqçularının intizam məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görməlidir;

5.2.9. etik davranış qaydaları və dövlət qulluqçuları tərəfindən həmin qaydalara əməl olunmasını tələb etmək hüquqlarına malik olmaları barədə şəxsləri və təşkilatları məlumatlandırmaq üçün tədbirlər görməlidir;

5.2.10. Etik davranış qaydalarının pozulmasının nəticələrinin aradan qaldırılması, habelə Agentliyə ictimai etimadın artırılması üçün tədbirlər görməlidir;

5.2.12. etik davranış qaydalarına əməl olunması ilə bağlı qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirilməlidir.

## 6. Etik davranış qaydalarının pozulmasına görə məsuliyyət

6.1. Etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

6.2. Aşağıdakı hallarda intizam icraatına başlanıla bilər:

6.2.1. "Etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qaydaların dövlət qulluqçusu tərəfindən pozulması barədə hüquqi və ya fiziki şəxslər tərəfindən şikayət və ya digər məlumatın verilməsi;

6.2.2. kütləvi informasiya vasitələrində dövlət qulluqçusu tərəfindən "Etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qaydaların pozulması və maraqların toqquşmasına yol verilməsi barədə məlumatın dərc edilməsi;

6.3. intizam icraatı zamanı dövlət qulluqçusu tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə, həmin əlamətləri aşkar etmiş Agentliyin rəhbəri bu barədə cinayət təqibi orqanına məlumat verməlidir.